**UOT:** 618.177-07

# Reproduktiv sağlamlıq cəmiyyətin demoqrafik göstəriciləri sosial-iqtisadi inkişafını formalaşdıran amil kimi

***R.Q. Nağıyeva, G.N. Göyüşova***
*Azərbaycan Tibb Universiteti, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası, Bakı*

**Müəllifin elektron poçt ünvanı:** arzu.mehdiyeva.81@bk.ru

***Açar sözlər*:** ginekoloqun rolu, məlumatlandırılmış razılıq, səlahiyyətli pasiyent, anonimlik, pasiyentin hüquqları, həkimin hüquqları
***Ключевые слова:*** роль гинеколога, информированное согласие, уполномоченный пациент, анонимность, права пациента, права врача
***Keywords*:** the role of the gynecologist, informed consent, competent patient, anonymity, patient's rights, doctor's rights

Reproduktiv sağlamlıq, insanın ümumi sağlamlığının və rifahının ayrılmaz hissəsidir. Qadınların reproduktiv davranışı isə cəmiyyətin demoqrafik göstəricilərinə, sosial-iqtisadi inkişafına və gələcək nəsillərin sağlamlığına birbaşa təsir edən faktorlardandır. Bu baxımdan, qadınların reproduktiv davranışının düzgün formalaşdırılması və idarə olunması mühüm strateji əhəmiyyət kəsb edir [1,2]. Həkim mama ginekoloqlar qadınlara tibbi yardım göstərməklə, maarifləndirmə işləri aparmaqla və psixoloji dəstək verməklə qadınların reproduktiv davranışının düzgün formalaşması prosesində əsas rol oynayırlar [2]. Araşdırmanın əsas məqsədi qadın məsləhətxanalarına müraciət edən qadınların sosial-demoqrafik xüsusiyyətlərini, məşğulluq vəziyyətlərini və reproduktiv davranışlarını təhlil etməkdir. Bununla yanaşı, həkim mama ginekoloqların bu prosesdə oynadığı rolu müəyyən etmək və təkmilləşdirmə istiqamətlərini təklif etmək də məqsədlər sırasında yer alır.

Araşdırmada müxtəlif yaş qruplarından və peşə sahələrindən olan qadınlar iştirak etmişdir. Anket sorğuları, müsahibələr və tibbi sənədlərin təhlili yolu ilə məlumatlar toplanmışdır. Statistik metodlardan istifadə edilmiş, məlumatlar təhlil olunmuş və nəticələr əldə edilmişdir.

Araşdırmanın nəticələrinə görə qadın məsləhətxanalarının pasiyentlərinin peşə strukturu aşağıdakı kimi olmuşdur:

-fəhlə qadınlar - 46%
-istehsalatda qeyri-iziki əməklə məşğul olanlar - 35%
-tələbə qızlar - 4%
-işləməyən qadınlar -15%

Bu göstəricilər qadınların müxtəlif peşə və sosial qruplardan olduğunu və reproduktiv sağlamlıqla bağlı məsələlərin geniş əhali təbəqəsini əhatə etdiyini göstərir.

İşləməyən qadınların (15%) təhlili nəticəsində müəyyən edilmişdir ki, səbəblər sırasında uşaqla məşğul olanlar - 8%, işləməyə ehtiyacı olmayanlar - 5%, ixtisasa uyğun iş yeri tapa bilməyənlər -1,5%, aşağı əmək haqqı qane etmədiyindən işləməyənlər - 0,5%, sağlamlıq vəziyyətləri ilə əlaqədar işləməyənlər -1% təşkil edir.

Bu təhlil göstərir ki, işləməyən qadınların əksəriyyəti ailə və uşaq qayğılarına görə çalışmır, bəzi qadınlar isə iqtisadi səbəblərdən və ya sağlamlıq problemlərinə görə əmək fəaliyyətindən uzaqdırlar.

Məlumdur ki, reproduktiv davranışın formalaşmasına təsir edən amillər təhlil edilmişdir ki, bunlara da sosial-iqtisadi vəziyyət, məşğulluq statusu, təhsil səviyyəsi, ailə planlaşdırılması, mədəni və milli adət-ənənə, tibbi xidmətlərin əlçatanlığı aiddir [1,3,4,]. Məlum olmuşdur ki, aşağı gəlir səviyyəsi reproduktiv sağlamlığa mənfi təsir göstərir, işləyən qadınlar tibbi xidmətlərə daha çox müraciət edir, təhsil səviyyəsi yüksək olan qadınlar reproduktiv sağlamlıq haqqında daha çox məlumata malikdir, ali təhsilli qadınlar ailə planlaşdırıl- masına daha ciddi diqqət yetirirlər, müəyyən adət-ənənələr, stereotiplər reproduktiv sağlamlıq, o cümlədən cinsi təhsil haqqında danışmağı düzgün davranış olaraq qəbul etmir, bunu tabu kimi dəyərləndirir,

sağlamlıq müəssisələrinin əlçatanlıq və keyfiyyət səviyyəsi, həmçinin mama-ginekoloqlar qadınların reproduktiv davranışlarına böyük təsir göstərir [1,2,5].

Həkim mama ginekoloqlar qadınların reproduktiv sağlamlıq haqqında məlumatlan-dırılmasında əsas rol oynayırlar. Belə ki, onlar qadınları cinsi yolla keçən infeksiyalar, onların qarşısının alınması və müalicəsi, kontraseptiv metodların seçimi və tətbiqi, hamiləliyin təhlükəsizliyi üçün vacib sayılan addımlar və müntəzəm müayinələr haqqında məlumatlandırmalıdırlar [1,2,3,6,7].

Mama-ginekoloqların tibbi xidmətlərin göstərilməsi sahəsindəki rolu da mühüm əhəmiyyət kəsb edir [8,9,10,11,14]. Belə ki, mama ginekoloqlar reproduktiv sağlamlığın qorunması üçün müntəzəm ginekoloji müayinələri, xəstəliklərin erkən aşkarlanmasını, müalicə xidmətlərini, hamilə qadınların doğuşa fiziki və psixoloji hazırlığını, doğuşdan sonra qadınların və yeni doğulmuş körpələrin sağlamlığının izlənməsini həyata keçirməlidirlər. Bununla yanaşı mama ginekoloqlar qadınların narahatlıqlarını dinləyib onları dəstəkləməli, psixoloji məsləhətlər verərək, stress və depressiya vəziyyətinin qarşısını almalı, qadınları sosial xidmətlərə yönləndirərək onları hüquqları haqqında məlumatlandırmalı və bununla da psixoloji dəstəyi təmin etməlidirlər.

Təhlillər nəticəsində məlum olmuşdur ki, qadınların reproduktiv davranışının formalaşmasına sosial stereotiplər mənfi təsir göstərir. Bu vəziyyətin aradan qaldırılması sahəsində həkim mama ginekoloqların üzərinə böyük məsuliyyət düşür. Belə ki, mama ginekoloqlar kütləvi informasiya vasitələrinin köməyilə və seminarlar keçirməklə gənclər arasında cinsi təhsilin əhəmiyyətini vurğulamalı, qadınların hüquqlarının müdafiəsini dəstəkləməklə onların reproduktiv hüquqları üzrə təbliğat aparmalıdırlar.

Müşahidələr fəhlə peşəsinin nümayəndələri (46%) arasında reproduktiv sağlamlıqla bağlı problemlərin daha çox olduğunu aşkarlamışdır. Məlumdur ki, ağır fiziki əmək hamiləlik və reproduktiv sağlamlığa mənfi təsir göstərir. Həmçinin gəlirlərin aşağı səviyyədə olması tibbi xidmətlərə əlçatanlığı məhdudlaşdırır. Fəhlə peşəsinin nümayəndələrinin təhsil səviyyələrinin nisbətən aşağı olması reproduktiv sağlamlıq haqqında məlumatlılığın məhdudluğuna səbəb olur.

Qeyri-fiziki əməklə məşğul olanlar (35%) qrupunun qadınları arasında reproduktiv sağlamlıqla bağlı vəziyyət nisbətən yaxşı olmuşdur. Belə ki, yüksək təhsil səviyyəsi ilə əlaqədar reproduktiv sağlamlıq üzrə məlumatlılıq vəziyyəti qənaətbəxş olmuşdur. Daha yaxşı iş və əmək şəraiti, həmçinin maddi imkanların yüksək

olması ilə əlaqədar tibbi xidmətlərə əlçatanlıq və tibbi xidmətlərdən istifadənin rahatlığı müşahidə edilmişdir. Sağlamlıq vəziyyətinin qənaətbəxş dəyərləndirilməsinə sadalanan səbəblərin təsiri yüksək olmuşdur.

Tələbə qızlar (4%) arasında aşkarlanan reproduktiv sağlamlıq problemləri cinsi təhsilin kifayət qədər olmaması səbəbindən yarana bilər. Gənclər arasında cinsi fəaliyyətlə bağlı stereotiplərinin olması, sosial təzyiqlər, utanma və ya qorxu səbəbindən tibbi yardıma xüsusilə mama-ginekoloqa müraciət etməmələri onların reproduktiv sağlamlıqlarına ağırlaşdırıcı təsir göstərir.

Müşahidələr əsasında işləməyən qadınların (15%) reproduktiv sağlamlığına təsir edən amillər aşkarlanmışdır. Belə ki, ailələrində uşaq sayının çox olması, vaxtlarının böyük hissəsinin uşaqların təlim-tərbiyyəsinə həsr etməsi ilə əlaqədar qadınlar (8%) reproduktiv sağlamlıqlarına kifayət qədər diqqət ayıra bilmirlər.

Həmçinin məlum olmuşdur ki, işləməyə ehtiyac duymayanlar (5%) maddi təminatlı olsalar da, bəzi hallarda tibbi xidmətlərə müraciətə mənasız baxırlar.

İxtisasa uyğun iş tapa bilmədikləri (1,5%) ilə əlaqədar yayılan işsizlik və sosial təcrid olma psixoloji problemlərə və reproduktiv sağlamlığa ağırlaşdırıcı təsir göstərə bilər.

Məlum olmuşdur ki, aşağı əmək haqqı səbəbindən işsiz qalmışlar (0,5%) arasında yaranan maddi çətinliklər onların tibbi xidmətlərə əlçatanlığını məhdudlaşdıra bilər.

Sağlamlıq vəziyyətləri ilə əlaqədar işsiz (1%) qaddınların mövcud sağlamlıq problemləri reproduktiv sağlamlıqlarına birbaşa təsir edir.

Tədqiqatımız nəticəsində həkim mama ginekoloqların sadalanan qruplarla işləmə strategiyaları müəyyənləşmişdir. Belə ki, fəhlə peşəsinin nümayəndələri ilə iş səyyar tibbi xidmətlərin təşkilini, yəni iş yerlərində müntəzəm müayinələrin keçirilməsini, maarifləndirmə seminarların işçilər üçün reproduktiv sağlamlıq haqqında təlimlərin təşkil edilməsini, maddi yardım proqramlarının yaradılmasını aşağı gəlirli qadınlar üçün tibbi xidmətlərin subsidiya edilməsini əhatə edir.

İstehsalatda qeyri-fiziki əməklə məşğul olanlarla işin aparılması aşağıdakılardan ibarətdir:

informasiya texnologiyalarının tətbiqi, yəni onlayn məsləhət xidmətlərinin göstərilməsi;

iş saatından əvvəl və ya sonra fərdi görüşlərin keçirilməsi; iş yerlərində sağlamlıq proqramlarının tətbiqi.

Tələbə qızlar arasında aparılan işlərə universitetlərdə maarifləndirmə, yəni cinsi təhsil proqramlarının təşkili, tələbələr üçün psixoloji dəstək, məsləhət xidmətlərinin mövcudluğu, utanma və qorxu faktorunu aradan qaldırmaq məqsədilə anonim məsləhət xidmətlərinin təşkili aid edilir.

İşləməyən qadınlar üzrə təşkil olunmalı işlərə evdar qadınlar üçün evdə tibbi xidmətlərin yaradılması, qadınların bir araya gəlib təcrübələrini bölüşə biləcəkləri sosial dəstək qruplarının təşkili, ixtisasa uyğun iş tapa bilməyənlər üçün işə düzəltmə xidmətlərinin yaradılması daxildir.

Araşdırma nəticəsində hazırlanan təklif və tövsiyələrə maarifləndirmə kampaniyalarının gücləndirilməsi - cəmiyyətin bütün təbəqələrini əhatə edən maarifləndirmə proqramlarının hazırlanması; ucqar bölgələrdə tibbi müəssisələrin sayının artırılması və mövcud olanların təkmilləşdirilməsi; həkim mama ginekoloqların peşəkar inkişafı onların müasir bilik və bacarıqlarla təmin edilməsi üçün davamlı təlimlərin təşkili; sosial stereotiplərin aradan qaldırılması cəmiyyətdə reproduktiv sağlamlıqla bağlı mövcud olan yanlış təsəvvürlərin dəyişdirilməsi; maddi dəstək proqramlarının təşkili - aşağı gəlirli qadınlar üçün tibbi xidmətlərin maliyyələşdirilməsi daxil edilmişdir.

Nəticədə qeyd etmək lazımdır ki, qadınların reproduktiv davranışının formalaşmasında həkim mama ginekoloqların rolu böyük və çoxşaxəlidir. Onlar yalnız tibbi yardım göstərməklə kifayətlənməməli, həmçinin maarifləndirmə, psixoloji dəstək və sosial problemlərin həllində də aktiv iştirak etməlidirlər.

Qeyd etmək vacibdir ki, qadınların reproduktiv sağlamlığı yalnız onların şəxsi problemi olmayıb, eyni zamanda cəmiyyətin və dövlətin də prioritet məsələlərindəndir [12,13,15,16,17]. Hər bir qadının sağlam, məlumatlı və öz hüquqlarını bilməsi üçün həkim mama ginekoloqların və digər səhiyyə işçilərinin rolu əvəzsizdir. Gələcək nəsillərin sağlamlığı və cəmiyyətin davamlı inkişafı üçün bu sahəyə diqqətin artırılması mühm əhəmiyyət kəsb edir.

Aparılan araşdırma sübut edir ki, qadınların sosial-demoqrafik xüsusiyyətləri, məşğulluq vəziyyətləri və təhsil səviyyəsi reproduktiv davranışlarına əhəmiyyətli dərəcədə təsir edir.

Bu səbəbdən də, həkim mama ginekoloqların fəaliyyətinin təkmilləşdirilməsi, tibbi xidmətlərin əlçatanlığının yüksəldilməsi və cəmiyyətin maarifləndirilməsi qadınların reproduktiv sağlamlığının optimallaşdırılmasında mühüm rol oynayacaq və ümumilikdə cəmiyyətin sağlamlığına və inkişafına da müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. https://apps.who.int/gb/ebwha/pdf_files/WHA57/A57_13-ru.pdf
2. https://www.who.int/ru/news-room/fact-sheets/detail/women-s-health
3. https://internist.ru/publications/detail/reproduktivnoe-zdorove-s- pozicii-voz/
4. Батаев Х.М., Яхъяева З.И. О народной медицине в Чеченской Республике // Проблемы социальной гигиены, здравоохранения и истории медицины, 2007, № 2, с. 52-54.
5. Баранов А.А., Альбицкий В.Ю. Смертность детского населения России. М.: 2007, 328 с.
6. Архангельский В.Н., Елизаров В.В., Зверева Н.В. и др. Демографический фактор в социально-экономическом развитии региона (на примере Пермской области). М., 2004, 255 с.
7. Архангельский В.Н. Обоснование выбора направлений и мер политики по стимулированию рождаемости / Политика народонаселения. Четвертые Валентеевские чтения. М., Макс Пресс, 2005, с. 74-84.
8. Аманжолова З.Д. Оценка эффективности внедрения новых организационных технологий в работу родовспомогательного стационара: Автореф. дисс. канд. мед. наук. Алматы, 2001, 24 с.
9. Вартапетова Н.В. Научное обоснование, разработка и внедрение организационно-функциональной модели акушерско-гинекологической и перинатальной помощи на современном этапе: Автореф. дисс. док. мед. наук,.Москва, 2011, 48 с.
10. Баранов А.А., Альбицкий В.Ю., Ильин А.Г. Резервы и пути снижения смертности детей // Вопросы современной педиатрии, 2006, №5, с.3-6.
11. Баранов А.А., Игнатьева Р.М., Каграманов В.И., Сугак А.Б. Региональные особенности воспроизводства и ранних потерь. Европейское лонгитудинальное исследование беременности и детства. М., 2005. 152с.
12. Баев О.Р., Белоусова В.С. Социально-медицинские аспекты репродуктивной функции у

первородящих старше 30 лет // Мать и дитя: материалы 5 Российского форума. М., 2004, с. 560.
13. WHO Recommendations on Antenatal Care for a Positive Pregnancy Experience: Summary, January 2018
14. https://cyberleninka.ru/article/n/metodologicheskiy-podhod-k-issledovaniyu-reproduktivnogo-povedeniya-zhenschiny-kak-sistemnomu-strukturno- urovnevomu-fenomenu/viewer
15. https://agdp1.ru/personal/rekomendatsii/puti-uluchsheniya-reproduktivnogo- zdorovya-devochek/
16. http://publishing-vak.ru/file/archive-psycology-2019-5/23-blyum-vasilenko.pdf
https://iris.who.int/bitstream/handle/10665/260442/WHO-RHR-17.03- rus.pdf?sequence=1&isAllowed=y

**Резюме**
**Репродуктивное здоровье как фактор формирования демографических показателей и социально-экономического развития общества**
**Р.К. Нагиева, Г.Н. Гоюшова**

Проведенное исследование доказывает, что социально-демографические характеристики женщин, статус занятости и уровень образования существенно влияют на их репродуктивное поведение. По этой причине совершенствование деятельности акушеров-гинекологов, повышение доступности медицинских услуг, просвещение общества сыграют важную роль в оптимизации репродуктивного здоровья женщин и окажут положительное влияние на здоровье и развитие общества в целом.

**Summary**
**Reproductive health as a factor in the formation of demographic indicators and socio-economic development of society**
**R.G. Naghiyeva, G.N. Goyushova**

The conducted research proves that women's socio-demographic characteristics, employment status and education level significantly influence their reproductive behavior. For this reason, improving the performance of obstetrician-gynecologists, increasing the availability of medical services and educating society will play an important role in optimizing women's reproductive health and It will also have a positive impact on the health and development of society as a whole.

**Daxil olub: 18.12.2024**